# Məşhur "Amerika azərbaycanlısı" – Cefri Verbok

**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə "Azərbaycan–Amerika mədəniyyət körpüsü: Cefri Verbok" adlı tədbir keçirilib.**

Məclis Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında təşkil edilib.

Əvvəlcə Cefri Verbokun Heydər Əliyevlə görüşü barədə videoçarx nümayiş olunub, həmin görüşdə qeyd olunan məsələlərin bu gün həqiqətə çevrildiyi, ərazi bütövlüyümüzün təmin olunduğu və Azərbaycanın dostlarının da bizimlə bərabər qələbə sevinci yaşadığı diqqətə çatdırılıb. Cefri Verbokun Azərbaycanla əlaqələrinin tarixi, uzun illər davam edən sarsılmaz dostluq münasibətləri və ölkəmizi, xüsusilə mədəniyyətimizi, musiqimizi dünyada uğurla təbliğ etməsi barədə danışılıb, amerikalı musiqiçiyə həsr olunmuş "Gənc səslər, qədim nəğmə" etnoqrafik sənədli filmindən fraqmentlər nümayiş etdirilib.

Qivami Rəhimli moderatorluq etdiyi tədbirin bədii hissəsində Cefri Verbokun, Anar İmanovun və Əsgər Əsgərzadənin ifasında konsert proqramı təqdim edilib.



Xalq qəzeti .- 2023.- 26 oktyabr, №234.- S.10.